

# ŞƏRAB turizminin mərkəzi kəndi

**Meysəri qədim üzümçülük və şərabçılıq ənənələrini müasir dövrün turizm imkanları ilə birləşdirərək yeni Azərbaycan brendi təqdim etmək niyyətindədir**



TƏRANƏ MƏHƏRRƏMOVA
terenameherremova@kaspi.az

Azərbaycanın üzümçülük və şərabçılıq ənənələrinin min illərlə ölçülən yaşı var. Hətta Qafqazda şərabçılığın vətəni olması iddiaları da var. Sovet dövrünün yaratdığı tənəzzüldən uzun müddət sonra ölkəmizdə müxtəlif sortlu üzüm plantasiyalarının salınması, yeni müasir şərab istehsalı zavodlarının fəaliyyətə başlaması, məhsulun xaricə ixracı, bu sahənin inkişafına olan dövlət dəstəyi üzümçülük və şərabçılığın inkişafına təkan verib. Bu sahənin iqtisadiyyatımızda yaratdığı fayda, həmçinin turizm istiqamətli şərab turizmi və şərab marşrutlarını formalaşdırmağa səbəb olub. Hazırda bu gəlirli sahənin daha da inkişaf etdirilməsi diqqət mərkəzindədir. “2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı” da bu məqsədə hesablanıb.

Azərbaycanda qərb, şimal və şimal-qərb turizm marşrutları üzrə 25-dən çox şərab zavodunun fəaliyyəti, beynəlxalq səviyyədə tanınan üzüm sortları, eləcə də şərabçılıq təcrübəsinin inkişafı bu sahəni iqtisadiyyatımızın prioritet qollarından birinə çevirib.

### TURİZM MƏRKƏZİ

Vaxtilə üzümçülük və şərabçılığın şöhrət qazandığı, iri aqrar rayon olan Şamaxıda köhnə ənənənin bərpası diqqəti bu bölgəyə, xüsusən qədim Meysəri kəndinə yönəldib. Kənd təsərrüfatının bu vacib sahəsinə diqqət üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətini gücləndirib, həmçinin yeni üzümçülük təsərrüfatlarının yaradılmasına yol açıb. Elə bu kənddə fransız üsulu ilə orqanik və biosertifikatlı şərab istehsal edən zavod açılıb. Prezident İlham Əliyev zavodun açılışında iştirak edərkən “Şamaxının çox böyük turizm potensialı var. Belə gözəl məkanları turistləri cəlb edir. Çünki bu, eyni zamanda, turizm mərkəzi olacaq”- deyə qeyd edib.

### “GÜLÜSTAN” QALASINA YAXIN KƏND

İsmayıllı rayon Regional Mədəniyyət İdarəsinin Şamaxı rayon üzrə nümayəndəsi Rəfael Tağızadə Meysərinin qədim üzümçülük və şərabçılıq ənənələrinin olduğunu deyir: “Şamaxının çaxır ənənələri məhz bu kənddə pərvəriş tapıb.







Bu kəndə gələn turistlərin marağına səbəb ola biləcək çox şey var. İnsanları mehriban və qonaqpərvərdir. Şirvanşahların müdafiə istehkamı sayılan “Gülüstan” qalası bu kəndin yaxınlığında yerləşir. Həmçinin kənddə albanların izinə məxsus tarixi abidə və müasir mədəniyyət nümunələri var. Yerli əhali təsərrüfatlarda çalışır. Bu kəndin, demək olar ki, işsizlik problemi yoxdur”.

### AZƏRBAYCAN BRENDİ KİMİ

Meysəri kəndində olarkən təsərrüfatlardan toplanıb zavodda istehsala yönəlmə mərhələsinə qədərki prosesi tur-bələdçi Nicat Məhərrəmov izah edir: “Bu kənddə əkilən yerli və xarici üzüm sortlarından hazırlanan Şirvan şərab növləri özünəməxsus dadı və ətri ilə seçilir. Üzüm bağlarında əkin və istehsal zamanı heç bir kimyəvi qatqıdan və ya əlavə şəkərdən istifadə edilmir. Qonaqlara tam orqanik şərab təqdim olunur. Məhsullar premium texnologiyalardan istifadə olunmaqla istehsal edilir ki, burda üzümün əllə yığımı əsas şərtdir. Yığım mövsümündə yerli əhali də cəlb olunur. Təsərrüfatlarda yerli üzüm sortları ilə yanaşı, Fransa və Gürcüstandan gətirilən tinglər də əkilir”. Ərazidəki şərab muzeyi turistlərin və yerli sakinlərin Meysəri şərabının dequstasiya etməsinə imkan yaradır. Kəndin şərabları Çin, Yaponiya və Polşaya ixrac edilir: “Almaniya və Rusiya ilə bu istiqamətdə danışıqlar son mərhələdədir. Çalışacağıq ki, məhsullarımızı Amerika bazarına da çıxara bilək. Zəngin şərabçılıq tarixi olan, milyonlarla ton istehsal edən ölkələrlə rəqabət etmək üçün bizə vaxt lazımdır. 4 illik nəticə isə göz qabağındadır: bizim şərablar bəyənilir və Azərbaycan brendi tanınır”.





## Meysəri festivalı

Kənddə istehsal olunan şərabın dadı damaqlara yayıldıqca, xarici ölkələrdə ekzotik içki kimi təqdim olunduqca 2019-cu ildə ilk şərab festivalının keçirilməsi də gündəmə gəlib. Dövlət Turizm Agentliyi təkcə şərab turizmi və marşrutları yaratmağı deyil, həmçinin Şərab festivalını ənənəyə çevirməyi düşünür. Turistik ölkələrin populyarlığında rol oynayan bu festivalların bizim ölkəyə də turistləri daha çox cəlb edəcəyi istisna edilmir.

### “İTER VİTİS QAFQAZ”

Azərbaycan Turizm Bürosunun Turizm məhsulu şöbəsinin müdiri Şərifə Həsənova “İter Vitis Qafqaz” layihəsini Qafqaz ölkələrini birləşdirən ilk yenilikçi transmilli marşrut kimi dəyərləndirir: “Bu marşrut Azərbaycan-Gürcüstan və Rusiyanı əhatə etməklə bu ölkələrdəki şərab bölgələrini, şərab zavodlarını, ev şərablarını və şərabla əlaqədar arxeoloji qazıntıları tanıtmaq üçün birləşdiriləcək. Qafqaz deyəndə ağıla Azərbaycanın gəlməsi üçün bu cür transmilli marşrutlar çox vacibdir. Qafqazın şərab mərkəzi olduğunu bu tip marşrutlarla dünyaya təqdim edə bilərik”. Ş.Həsənova Bakı-Abşeron, Şirvan, Şamaxı-İsmayıllı-Ağsu, Şimal-Qərb, Şəki-Zaqatala və tarixən mövcud olan Gəncə- Qazax zonası və Tovuza qədər ərazinin turizm marşrutu kimi müəyyənləşdiyini qeyd edir: “Ümid edirik ki, Qarabağ da əhatə olunandan sonra tezliklə Hadrut-Tuğ zonasına da şərab marşrutunun bir hissəsini yönləndirə biləcəyik. O cümlədən, Naxçıvanda da şərabçılıq bərpa olunur”.

*Məqalə Dövlət Turizm Agentliyi tərəfindən elan edilmiş müsabiqəyə təqdim edilir.*